**13.10.2023: xəbər**

**Khazar University students begin research experience at the Institute of Folklore**

The 4th year students of the School of Humanities, Education and Social Sciences of Khazar University, majoring in “Philology (Azerbaijani language and literature)” began research experience in Folklore at ANAS Institute of Folklore in the autumn semester of the 2023-2024 academic year. The research experience in Folklore is carried out in order to apply the theoretical knowledge acquired in the educational process of Philology students in the context of modern scientific approaches and to develop their research abilities. The Scientific Secretary of the Presidium of ANAS, Associate Professor Hikmat Guliyev, who led the research experience, introduced the students of the Faculty of Philology to Academician Mukhtar Imanov, General Director of ANAS Institute of Folklore. Academician M.Imanov provided students with detailed information about the Institute directions of scientific research, important achievements and periodicals.

Then the students visited the Department of Folklore of Turkic Nations of the Institute of Folklore. The head of the Department, Doctor of Philology, Professor Afzaladdin Askar, with the participation of other employees of the Department, introduced the students with the activities of the Department of Folklore of Turkic Nations, areas of research, and important works in the field of translation. The meeting discussed topics of interest to students, including folklore collections and research based on academic principles.

**Xəzər Universitetinin tələbələri Folklor İnstitutunda elmi tədqiqat təcrübəsinə başlayıblar**

Xəzər Universitetinin Humanitar, təhsil və sosial elmlər fakültəsinin Filologiya (Azərbaycan dili və ədəbiyyatı) ixtisası üzrə IV kurs tələbələri 2023-2024-cü tədris ilinin payız semestri çərçivəsində AMEA Folklor İnstitutunda Folklor elmi tədqiqat təcrübəsinə başlayıblar. Folklor elmi tədqiqat təcrübəsi filologiya ixtisası üzrə təhsil alan tələbələrin tədris prosesində əldə etdikləri nəzəri biliklərin müasir elmi yanaşmalar kontekstində tətbiqi, onlarda tədqiqatçılıq qabiliyyətlərinin formalaşdırılması məqsədilə həyata keçirilir. Elmi tədqiqat təcrübəsinə rəhbərlik edən AMEA Rəyasət Heyətinin elmi katibi Dos. Hikmət Quliyev filologiya

fakültəsinin tələbələrini AMEA Folklor İnstitutunun baş direktoru, akademik Muxtar İmanovla tanış etdi. Akademik M.İmanov tələbələrə institutun elmi tədqiqat istiqamətləri, əldə olunan mühüm nailiyyətlər, dövri nəşrlər haqqında geniş məlumat verdi.

Sonra tələbələr Folklor İnstitutunun Türk xalqları folkloru şöbəsində oldular. Şöbənin müdiri, filologiya elmləri doktoru, professor Əfzələddin Əskər şöbənin digər əməkdaşlarının iştirakı ilə Türk xalqları folkloru şöbəsinin fəaliyyəti, aparılan tədqiqat yönləri, tərcümə sahəsində görülən mühüm işlər barədə tələbələrə məlumat verdi. Görüş zamanı tələbələri maraqlandıran mövzular, o cümlədən, folklorun toplanılması, akademik prinsiplər əsasında araşdırılması məsələləri müzakirə olundu.





